http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 12 (1609) 30 iyun 2015 - ci il Qiymәti 40 qəpik

# “Bakı-2015” birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi

## *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*



**Son 17 gün ərzində dünya idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 17 gündə tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına layiqincə ev sahibliyi etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə idmançını, nümayəndə heyətlərinin üzvlərini, bu Oyunları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi.**

Möhtəşəm idman bayramı təntənəli bağlanış mərasimi ilə sona çatdı. Mərasimin keçirildiyi, birinci Avropa Oyunlarının yadigarı olan Bakı Olimpiya Stadionu yenə də izdihamlı idi. Bağlanış mərasiminə olan hədsiz maraq Oyunların böyük uğurundan xəbər verirdi. İdman mütəxəssisləri, analitiklər hesab edirlər ki, “Bakı-2015” gözlənildiyindən, təsəvvür edildiyindən də möhtəşəm alındı. “Bir çox ev sahibi şəhərlər bu cür tədbirlərə hazırlıq üçün beş-yeddi il sərf edir. Bakı isə cəmi otuz aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı Oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə Avropa Olimpiya hərəkatını şərəfləndirdi” - Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin bu sözləri həqiqətən qürurvericidir. Onun qeyd etdiyi kimi, iyunun 17 günü möhtəşəm idman bayramı və birinci Avropa Oyunlarına layiq tədbir kimi yadda qaldı.

Stadionda hamı öz yerini tutub: mərasimin təşkilatçıları və iştirakçıları da, idmançılar və tamaşaçılar da. Sonuncuların simasından, əhval-ruhiyyəsindən belə məlum olurdu ki, 17 oyun günü, maraqlı və gərgin keçən yarışlar, idmançılarımızın parlaq çıxışı onların ürəyincə olub. Azərbaycan ötən 17 gündə 21 qızıl medal sevinci yaşayıb. Biz bu göstəriciyə görə yalnız Rusiyadan geri qalaraq ikinci yerə çıxmışıq. Avropanın 49 ölkəsindən 48-ni geridə qoyaraq qitə ikincisi olmaq doğrudan da böyük şərəfdir. İdman həvəskarlarını, Bakı sakinlərini bağlanış mərasiminə gətirən əsas amillərdən biri də bu idi: qələbədən doğan sevinc və iftixar hissləri. Bu hissləri stadiona toplaşan on minlərlə insanın hər birinin simasından oxumaq olardı.

Bakı Olimpiya Stadionunda qurulan əsas səhnə açılış mərasimində olduğu kimi, bu dəfə də bənzərsizliyi, genişliyi ilə diqqəti çəkirdi. Əsas və yardımçı səhnələr buta formasında işlənib və LED diodları ilə işıqlandırılıb. Stadion üzərində ümumi uzunluğu 250 metr, yükgötürmə qabiliyyəti 7,5 ton olan xətlər çəkilib. Mərasimin təşkili üçün 20 ölkədən avadanlıq gətirilib, stadionda 800 səsgücləndirici quraşdırılıb. Bir sözlə, təşkilatçılar maraqlı və yaddaqalan bağlanış şousu hazırlayıblar.

Bədii rəhbər Ceyms Hedli bağlanış mərasiminin ideya və məzmununu belə ifadə edib: Mərasim ənənəvi və müasir Azərbaycan mədəniyyətinin vəhdətini nümayiş etdirərək diqqəti gələcəyə yönəldir. Biz keçmişin müasir dövrü necə formalaşdırdığının və gələcəyə necə təsir göstərdiyinin şahidi oluruq. Müasir dövrün musiqisi, rəqsi, memarlığı milli ənənələrdən qaynaqlanır və yaranan ahəngdarlıq bizi ilhamlandırır. İlk dəfə olaraq Avropa Oyunları 50 ölkəni yarış meydanlarında bir araya gətirdi. Bu axşam Oyunların uğurunu və idmançıların zəfərini qeyd edirik. Odlar Yurdu Azərbaycan öz alovunu dünya ilə bölüşdü. Onun işığı hamımızın qəlbində yaşayır.

Şounun təşkilində iştirak edən 1600-dən çox könüllünün əksəriyyəti azərbaycanlıdır. Həmçinin 17 müxtəlif ölkədən də könüllülər cəlb olunub. Onlar 400 dəfədən çox məşq ediblər. Mərasimin təşkilinə 28 ölkədən 300 nəfərdən çox yaradıcı heyət və 34 ölkədən müxtəlif sahələrdə ixtisaslaşmış minədək mütəxəssis cəlb olunub.

Bağlanış mərasimi stadionda şeypurların səsləndirilməsi ilə başladı. Nəzərlər Prezident lojasına yönəldi. Tamaşaçılar Azərbaycan Respublikasının

(davamı səh. 2-də)

# "Bakı-2015" birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

(əvvəli səh. 1-də)

Prezidenti İlham Əliyevi, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini, Bolqarıstan Prezidenti Rosen Plevneliyevi, Rusiya Dövlət Dumasının sədri Sergey Narışkini, Lixtenşteyn parlamentinin sədri Albert Friki, Avropa Olimpiya Komitəsinin, Beynəlxalq Olimpiya Komitəsinin nümayəndələrini, Avropa Olimpiya ailəsinin üzvlərini hərarətli alqışlarla salamladılar.

Azərbaycan müxtəlif rənglərin, insanların, ənənələrin vəhdətindən ibarət zəngin xalça təsiri bağışlayır. Xalçanın ilmələri və naxışları kimi onların da hər biri fərqlidir. Buna baxmayaraq, fərqlilik onları gözəl bir əsər yaratmaq məramı ətrafında birləşdirir.

Yaradıcı heyət "Oyanış" adlandırılan mərasimi məhz bu ideya əsasında qurub. Stadiondakı ekranlarda rəngbərəng xalça ilmələri canlanır. Görkəmli rəssam Faiq Əhmədin bənzərsiz xalçalarının naxışı 10-dan 0-dək rəqəmlərə çevrilir və geriyə sayım başlayır. Sıfır göründüyü an işıq əsas səhnədəki iki müğənninin üzərinə düşür. Xor onlara qoşularaq Azərbaycanın dövlət himnini yeni simfonik aranjemanda ifa edir.

Azərbaycanın dövlət bayrağı stadiona gətirilir və Avropa Olimpiya Komitəsinin bayrağının yanında ucaldılır. Bu məqamda idmançılarımızın ilk Avropa Oyunlarında qazandıqları qələbələrin şərəfinə dövlət bayrağımızın 21 dəfə yüksəyə ucaldığını, dövlət himnimizin səsləndiyini bir daha qürur hissi ilə xatırlayırıq.

Mərasimin "Transformasiya" adlanan başlanğıc hissəsi Azərbaycan musiqisi, rəqsi və memarlığının müasirliyin enerjisi və gücü ilə zənginləşdirilmiş ənənələrini tərənnüm edir. Ətrafa xalq musiqisinin sədaları yayılır və ona müasir müğənnilər səs verir. Xalq rəqslərinin və müasir rəqslərin ifaçıları bir-birilərinin ritm və enerjisinə cavab verirlər. Rəqqasələr əsas səhnədə dövrə vurduqca paltarları ətrafa şəfəq saçaraq gözəl naxışlar yaradır.

Səhnədəki üç nəhəng heykəl fırlandıqca musiqinin ritmi dəyişir. Açılan hər bir ətəyin uclarından 24 ifaçı tutur. Musiqi rok sintezinə çevrildikdə isə ənənəvi ətəklər müasir parlaq naxışlara dönür. Bunun ardınca heykəlləri hərəkətə gətirən 128 ifaçı görünür. Səhnədə dövrə vuran yüzlərlə rəqqasə mozaika formasında naxışlar yaradır. Stadionda qurulan "Qız qalası"nın divarları aralanır və tamaşaçının gözü qarşısında Bakının yeni rəmzi olan "Alov qüllələri" canlanır. Bu səhnə müasirliyin keçmişdən qaynaqlandığını əyani şəkildə təcəssüm etdirir.









Stadionun ekranlarında qısa film nümayiş olunur. Bu film öz enerjisi, ruh yüksəkliyi və fədakarlıqları ilə ilk Avropa Oyunlarının uğurla keçməsinə töhfə verən 12.500 alovqoruyan könüllüyə minnətdarlığın ifadəsidir.

Arenada "Çal-oyna" xalq mahnısının melodiyası eşidilir. Azərbaycan Dövlət Uşaq Filarmoniyası xorunun ifa etdiyi bu mahnı 17 gün ərzində qəlbimizi idman ustalığı və cəsarəti ilə fəth edən 6 min atletin şərəfinə səslənən bayram havası təsiri bağışlayır. Mahnının sədaları altında stadiona bayraqdaşıyanlar daxil olurlar. Onlar iki cərgədə qarşı-qarşıya hərəkət edirlər. Bir cərgənin önündə Olimpiya Oyunlarının vətəni Yunanıstanın, digərinin önündə ilk Avropa Oyunlarının ev sahibi Azərbaycanın bayraqları dalğalanır. Uşaq xorunun üzvləri sülh və birlik rəmzi olan su zanbaqlarını komandaların bayraqdarlarına verirlər.

İdmançılar tribunaların önündən keçirlər. Tamaşaçılar "Bakı-2015"in iştirakçı ölkələrinin nümayəndələrini alqışlayırlar.

Təbii ki, Azərbaycan idmançılarının payına daha çox alqış düşür. Bu da təsadüfi deyil. İdmançılarımız birinci Avropa Oyunlarında sözün əsl mənasında tarix yazmağa nail oldular. Onlar yarışların 21 qızıl, 15 gümüş və 20 bürünc medalını qazandılar. Bununla da Azərbaycan qitə üzrə ikinci yeri tutmaqla, idman ölkəsi olduğunu bir daha sübuta yetirdi.

İdmançıların birlik və dostluq rəmzinə çevrilən paradı başa çatdı. Onlar stadionda dövrə vurub tribunalarda yerlərini tutdular.

Azərbaycanın birinci xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış etdi.

(davamı səh. 3-də)

# "Bakı-2015" birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi

## *Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib*







## Birinci xanım Mehriban Əliyevanın çıxışı

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki.

Zati-aliləri.

Avropa Oyunlarının atletləri.

Xanımlar və cənablar.

İlk Avropa Oyunlarının bağlanış mərasiminə xoş gəlmisiniz.

Hörmətli həmvətənlər,

Birinci Avropa Oyunlarının uğurla başa çatması münasibətilə sizi ürəkdən təbrik edirəm. Oyunlar zamanı Azərbaycan yığma komandasına, Avropa atletlərinə və çoxsaylı qonaqlarımıza göstərdiyiniz dostluq, qonaqpərvərlik və dəstəyə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Müstəqil Azərbaycana yeni qələbələr, Azərbaycan xalqına xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Əziz dostlar,

İlk Avropa Oyunları başa çatır. Ötən 17 gün Azərbaycanın tarixində əlamətdar və yaddan çıxmaz günlər oldu.

Biz ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsindən fərəhlənirik. Qürur hissi duyuruq ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliyi cəmi iki il yarım ərzində reallığa çevirdi və ən yüksək standartlara uyğun idman tədbirini keçirdi.

Son 17 gün ərzində biz Avropa dövlətləri arasında birliyin, həmrəyliyin və dostluğun şahidi olduq.

Mən Oyunlara və atletlərə verdiyi böyük dəstəyə görə Azərbaycan xalqına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bütün xalq öz atletləri ilə qürur duyur. Onlar bütövlükdə 56 medal, o cümlədən 21 qızıl medal qazanmış, ümumi medallar cədvəlində isə ikinci yeri tutmuşlar. Azərbaycan atletləri, Sizin uğurunuz gələcək nəsillər üçün bariz nümunədir.

Mən bu Oyunlarda iştirak etmiş bütün atletlərə təşəkkürümü bildirmək istəyirəm. İlk Avropa Oyunlarını belə bir yaddaqalan idman festivalına çevirdiyinizə görə minnətdaram. Siz möhtəşəm çıxışlarınızı həvəslə, cəsarətlə və incəliklə bizə bəxş etdiniz. Bu Oyunlar Sizin Oyunlardır və nailiyyətləriniz bizi həqiqətən ilhamlandırır.

Hamınızı təbrik edirəm.

Mən mövqeyi və qətiyyəti sayəsində Avropa Oyunları ideyasını reallığa çevirən Avropa Olimpiya Komitəsinə və onun prezidenti cənab Patrik Hikkiyə dərin təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Mən, həmçinin hazırlıq zamanı dəyərli tövsiyələrinə görə Əlaqələndirmə Komissiyasının sədri Spiros Kapralosa təşəkkürümü bildirmək istəyirəm.

Oyunların Təşkilat Komitəsinin üzvlərinə və bütün beynəlxalq tərəfdaşlarımıza nümayiş etdirdikləri sadiqliyə və fəaliyyətə görə minnətdaram.

Avropadan öz komandalarına dəstək vermək məqsədilə gəlmiş çoxsaylı sədaqətli azarkeşlərə təşəkkür edirəm. Siz qələbələri qeyd etdiniz. Siz məğlubiyyət zamanı təsəlli verdiniz. Siz Oyunlar üçün istək, coşqu və dostluq mühitini yaratdınız.

Mən gözəl könüllülərimizə minnətdarlığımı bildirmək istəyirəm. Siz olmadan biz bu tədbiri keçirə bilməzdik. Sizin həvəsiniz və peşəkarlığınız "Bakı-2015" ruhunu canlandırmaqda bizə yardımçı oldu. Ölkəmizin böyük gələcəyi olan bu cür istedadlı gəncləri var.

Xarici könüllülərimizə də çox sağ ol deyirik. Siz bütün Avropadan Azərbaycana gəldiniz ki, bu tarixi tədbiri təşkil etməkdə bizə kömək edəsiniz və idman, dostluq festivalının bir hissəsi olasınız. Biz sizsiz darıxacağıq və ümid edirəm ki, yenidən gələcəksiniz.

Azərbaycan öz qollarını və ürəyini Avropaya açdı. Biz köhnə dostlarımızı salamladıq və yenilərini qazandıq.

Bu axşam biz hamınızla sağollaşırıq. Lakin Sizi Azərbaycanda gələcək tədbirlərdə yenidən görməyə ümid edirik.

Gələn il Bakıda 42-ci Şahmat Olimpiadası və "Formula-1" Avropa Qran-pri yarışları keçiriləcək. 2017-ci ildə biz dördüncü İslam Həmrəylik Oyunlarını qəbul edəcəyik. Nəhayət, 2020-ci ildə futbol üzrə Avropa çempionatının matçları şəhərimizdə təşkil olunacaq.

Bu axşam biz məşəli söndürəcəyik və ilk Avropa Oyunları başa çatacaq. Belə bir idman və dostluq bayramı başa çatdığı zaman mən ölkəmizdən və xalqımızdan böyük qürur duyduğumu bəyan edirəm.

Son 17 gün hər zaman xatirimizdə qalacaq. O, nəsillərə qalacaq, tariximizin yaddaqalan məqamı olacaq.

Atletlər, sağ olun!

Dostlar, sağ olun!

Azərbaycan, sağ ol!

(Birinci xanım, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın çıxışı dəfələrlə sürəkli alqışlarla qarşılandı).

* * *

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış etdi.

## Patrik Hikkinin çıxışı

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri İlham Əliyev.

Birinci xanım, "Bakı-2015"in Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva.

Hörmətli qonaqlar.

Xanımlar və cənablar.

Nəhayət, 17 günlük möhtəşəm idman bayramını bizimlə bölüşən hər bir insan. Sağ olun!

Avropa Oyunlarını alovlandıran qığılcım məhz Odlar Yurdundan gəldi.

Azərbaycan, sən bizim səmimi və qonaqpərvər ev sahibimiz oldun.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə "Bakı-2015" ilk Avropa Oyunlarının Əməliyyat Komitəsi Avropada ən yaxşı kişi və qadın idmançılar üçün çox gözəl arenaları hazırladı.

İş fəaliyyətinin dəqiqliyi qızıl medallar standartına uyğun oldu.

Yeni gənc qəhrəmanlardan ibarət komandanı Sizin gözəl könüllüləriniz formalaşdırdı.

Bütün bunlar cəmi 30 ay ərzində təmin edildi.

Burada yaratdığınız idman obyektləri gələcək illərdə atletlərinizə, xalqınıza və gənclərə xidmət edəcək.

Belə bir böyük layihənin reallaşdırılmasında nümayiş etdirdiyiniz yekdilliyə görə hamınıza minnətdarıq. Siz komandalarınızı idman arenalarında ən yüksək nəticələri əldə etmək üçün ilhamlandırdınız.

Beynəlxalq və Avropa federasiyalarına minnətdarıq. Siz bu Oyunlara, innovasiyaya açıq fikirlə yanaşdınız. Biz birlikdə nümayiş etdirdik ki, müasir dövrün bu çoxnövlü idman tədbirləri hər bir şəhərin tələbat və istəklərinə cavab verə bilər.

Avropa atletlərinə minnətdarlığımızı bildiririk. Siz ölkələrinizi və qitənizi şərəf və ləyaqətlə təmsil etdiniz. Oyunların böyüklüyünü yüksək idman nəticələri müəyyən edir.

Siz bizə möhtəşəm idman bayramı bəxş etdiniz.

Ümid edirəm ki, siz bu Oyunları həmişə xatırlayacaqsınız. Qələbəyə sevindiniz. Məğlubiyyətdən dərs götürdünüz. Siz Avropanın ən yaxşı idmançıları ilə yaşadıqdan, məşq etdikdən və yarışdıqdan sonra artıq "Rio-2016" Olimpiya Oyunlarında bütün dünya qarşısında çıxışa hazırsınız.

Avropa fərqliliklər və böyük rəqabət, müxtəliflik, idman və yarışma qitəsidir. Lakin burada, Avropa Oyunlarında biz ümumi inamla, ümumi bayraq altında toplaşdıq: idman və Olimpiya ideallarına doğru addımlamaq bizi ayıran yox, daha çox birləşdirən məkana aparır. Bu inam ondan ibarətdir ki, biz - Avropanın 50 ölkəsi hər dörd ildən bir iki möhtəşəm həftə ərzində birgə ola bilərik.

Bu, bütün gələcək Avropa Oyunlarının əsaslanacağı Oyunlar oldu. Bu cür tədbirin sarsılmaz və ilhamlandırıcı əsası qoyuldu.

Avropa Olimpiya ailəsinə və dünyadakı dostlarımıza tam əminliklə deyirəm:

Azərbaycanın gələcəyi parlaqdır.

Avropa Oyunlarının gələcəyi parlaqdır.

Avropanın gözəl atletləri üçün gələcək parlaqdır.

Beləliklə, indi mən minnətdarlıq, qürur və böyük nikbinlik hissi ilə "Bakı-2015" ilk Avropa Oyunlarını bağlı elan edirəm.

Sağ ol, Bakı!

Sağ ol, Azərbaycan!

(davamı səh. 4-də)

# “Bakı-2015” birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

(əvvəli səh. 3-də)

X X X

Çıxışlar zamanı fonda gözəl musiqi səslənir. Onu Avropanın istedadlı musiqiçilərindən biri olan Kristian Ştaynhauzer bağlanış mərasimi üçün məxsusi bəstələyib.

Stadionun monitorlarında daha bir qısa film nümayiş olunur. Film Azərbaycanın yaxın illərdə ev sahibliyi edəcəyi böyük tədbirlərdən - 2016-cı il “Formula-1” Avropa Qran-pri yarışlarından, 2017-ci il İslam Həmrəylik Oyunlarından, 2020-ci il futbol üzrə Avropa çempionatının final mərhələsi matçlarından və Bakının görməli yerlərindən bəhs edir.

Biz hər gün yeniləşən texnologiyalar əsrində yaşayırıq. Bu texnologiyalar sayəsində ölkələr və ayrı-ayrı fərdlər - onların ideyaları, mənsub olduqları xalqın mədəniyyəti və daşıdıqları enerjini birinə ötürmək baxımından əvəzolunmaz mübadilə imkanları yaranır.

Səhnədə dünyamızın gələcəyi təsvir olunur. Bu, gəncliyin enerjisidir. Rəqqas səhnədə bir enerji qığılcımı yaradır. Güclü enerji bədənindən keçərək onu hərəkətə gətirir. Rəqqas bu enerjini rəqqasəyə, daha sonra isə başqalarına ötürür. Onların urban və atletik tərzdə hərəkətləri yüksək enerjili hip-hop rəqsinə çevrilir. Beş yüzdən çox ifaçı diod lampalarla bəzədilmiş altıbucaqlı lövhələri başları üzərində tutaraq səhnəyə daxil olur. Onlar hərəkət etdikcə lövhələr əvvəlcə qrafik ekvalayzer, daha sonra şanagülü formasına düşərək müxtəlif heyrətamiz obrazlar yaradır.

Musiqi getdikcə həzinləşir və tamaşaçıların diqqəti səmaya yönəlir. İfaçılar üzərində altıbucaq formalı işıq zolaqları olan sirk halqalarında akrobatik hərəkətlər edirlər. Onlar tədricən yerə enir və bu zaman səhnədə çıxış edən ifaçılar şouya qoşulurlar. Əllərində əlvan rəngli bayraqlar olan 75 ifaçı səhnə boyunca hərəkət edir. Ahəngdar şəkildə hərəkət edən altıbucaqlı lövhələr birləşərək buta formalı üç səhnəni təcəssüm etdirən obraza çevrilir. Sonda “Bakı-2015” birinci Avropa Oyunlarının rəmzi olan nar ağacının qrafik obrazı yaranır.

Stadionun monitorlarında 17 günlük yarışların əsas məqamları nümayiş etdirilir. Tamaşaçılar ruh yüksəkliyi və sevincin, qələbə və məğlubiyyətin doğurduğu hisslərin, idman arenalarında yaranmış dostluğun şahidi olurlar.

Stadiona Azərbaycan muğamını tərənnüm edən həzin kamança səsi yayılır. Əsas səhnədə Atəşgah məbədi ucalmağa başlayır. Məbədin damında dayanmış qum rəssamı Simurq quşu əfsanəsindəki “həyat ağacı”nı çəkir. Onun çəkdikləri səhnədə heyrətamiz şəkildə canlanır. Yetmiş altı rəqqas qum üzərində çəkilən təsvirlərə mütənasib xoreoqrafik hərəkətlər nümayiş etdirir. Rəssam yaxınlaşan tufanı təsvir etdikdə rəqqaslar külək və dalğaları canlandırırlar. Daha sonra o, qum üzərində quş fiqurları çəkir və səhnədə Oyunların iştirakçısı olmuş 50 ölkəni təcəssüm etdirən 50 quş görünür. Quşlar bir yerə toplaşaraq əfsanəvi Simurq quşuna çevrilir.

Musiqi getdikcə daha təntənəli xarakter alır. Qum rəssamı indi alov rəsmləri çəkir və səhnəyə alov dilimlərinə bənzər qanadları olan rəqqaslar çıxır. Musiqi güclənir, rəqqaslar daha çevik hərəkətlər edir və səhnə sanki od-alova bürünür. İfa kulminasiya məqamına çatdıqda Simurq quşu heyrətamiz şəkildə alovlanır və stadionun mərkəzində şölə saçaraq yanmağa başlayır.

Bu möhtəşəm səhnə məşhur əfsanənin motivləri əsasında qurulub. Əfsanəyə görə, bir dəstə quş xoşbəxtliyin, sağlamlığın və müdrikliyin müjdəçisi olan sehrli Simurq quşunun axtarışına çıxır. Bir araya gəldikdə Simurq quşunun ruhunun qəlblərində yaşadığını və birləşəcəkləri təqdirdə vahid sirli varlığa çevriləcəklərini anlayırlar. Belə də olur. Onların birliyindən yaranan Simurq quşu alovların əhatəsində pərvazlanıb səmaya qalxır və qanad çaldıqca yanaraq minlərlə işıq zərrəciyi arasında görünməz olur. Onun közü yerə yeni həyat toxumları kimi səpələnir, torpağa düşdükcə oyanış, dirçəliş baş verir.

Mərasim üçün yaradılan Simurq quşunun çəkisi 2 tona yaxın, ölçüləri 18x18 metrdir. Onun 50 qanadının hər birinin uzunluğu gərildikdə 1-3,4 metrə çatır.

Səmadan tamaşaçıların üzərinə Simurq quşu əfsanəsindəki oyanış və dirçəliş toxumlarını əks etdirən yanar köz - işıq diodları səpələnir. Beləliklə, 17 günün kulminasiya nöqtəsi yaxınlaşır, birinci Avropa Oyunlarının alovu sönməyə başlayır. Yavaş-yavaş sönməkdə olan bu alovun ətrafında 50 iştirakçı dövləti təmsil edən 50 uşaq dayanır. Onlardan biri Oyunların alovu ilə çırağını yandıraraq onu digər uşaqlarla bölüşür. Çıraqlar bir-bir yanır.

Sonra səhnənin mərkəzinə yaxınlaşan alov ifaçıların yanından keçir və onların da çıraqları yanmağa başlayır. Bu çıraqların asıldığı nəhəng çılçıraq səmaya yüksəlir. Stadion möhtəşəm işıq selinə qərq olur. Buradan belə bir məna çıxır: Avropa Oyunları alovunun zərrəciklərini qəlbimizdə daşıyıb dünya ilə paylaşsaq, o da Simurq quşu kimi ölməz olacaq.

Bu təsirli səhnələr Martin Rozenqarten və Kristian Ştaynhauzerin Azərbaycan xalq mahnısı “Sarı gəlin”in motivləri əsasında aranjeman etdikləri “Lanterns” musiqisi ilə müşayiət olunur. Musiqi Şirzad Fətəliyevin ifasında balabanda səslənir.

Stadionda müasir rəqslər və mahnılar, ecazkar görüntülər bir-birini əvəz edir. Məşhur musiqi qruplarının və xarici estrada ulduzlarının ifaları əsl bayram ovqatı yaradır.

İdmançılar tribunalardan meydançaya axışır, rəqs edənlərə qoşulurlar. Bu səhnə birlik və dostluğun daha bir parlaq nümayişinə çevrilir.









**Möhtəşəm atəşfəşanlıq başlayır. Bakı səmasını nura boyayan al-əlvan fişənglər ilk Avropa Oyunlarının başa çatmasından xəbər verir. Beləliklə, “Bakı-2015” Azərbaycana başucalığı gətirən tarixə çevrilir.**

**AZƏRTAC**

# Türkiyə İç Hastalıkları Uzmanlık Derneği başkanı ATU-da

**Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, akademik Əhliman Əmiraslanovla Türkiyə İç Hastalıkları Uzmanlık Derneği başkanı prof. Dr. Serhat Ünal arasında görüş keçirilib**



Görüşdə prof. Dr. Serhat Ünal Türkiyə İç Hastalıkları Uzmanlık Derneğinin təşkil etdiyi seminarı bu dəfə Bakıda, ATU-da keçirmək niyyətindən bəhs etdi: “Noyabrın 20-22-də Azərbaycan Tibb Universitetində Türkiyə-Azərbaycan terapevtlərinin seminarını keçirəcəyik. Əslində, bu dərnəyi yaradan gündən ilk ölkə kimi Azərbaycanda seminar keçirməyi düşünürdük. Lakin bura gəlməyimiz bu günə təsadüf etdi. Buna görə olduqca məmnunuq.

Bizim dərnəyin məqsədi iç xəstəlikləri ilə əlaqədar şəxsləri bir araya toplamaq, geniş müzakirələr aparmaq, qardaş ölkələrin iç xəstəlikləri uzmanlarını bir-biri ilə tanış edib, əlaqələrin sıx yaradılması üçün danışıqlar aparmaq, seçilən mövzuya əsasən mühazirələrin oxunmasıdır”.

Rektor Əhliman Əmiraslanov bu tibb dərnəklərin ATU-da keçirilməsinə çox müsbət baxdığını, bu ali təhsil ocağının qardaş Türkiyə universitetləri ilə sıx əlaqədə olduğunu, tez-tez belə tədbirlər, seminarlar keçirdiklərini dedi.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova, beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalov da iştirak ediblər.

# ATU-nun əməkdaşı Hindistanda seminarda




◆ Bu günlərdə Azərbaycan Tibb Universitetinin (ATU) xarici tələbələrlə iş üzrə dekanı, dosent İsmayıl Əfəndiyev Hindistan Respublikasında seminarda iştirak edib.

Dosent İsmayıl Əfəndiyev səfər zamanı Azərbaycan Tibb Universiteti haqqında geniş məlumat verərək, təbliğat xarakterli çıxışlar edib. Seminarlar Nyu Delhi, Mumbay, Vadovara, Banqalor, Haydarabad və s. şəhərlərdə keçirilib.

Hindistanlı gənclər, həmçinin onların valideynləri tərəfindən ATU-da təhsil almaq üçün böyük maraq göstərilib, bununla bağlı çox sayda suallar verilib.

# East London Universitetinin nümayəndələri ATU-da qonaq oldu

**◆ East London Universitetinin nümayəndələri Azərbaycan Tibb Universitetinin (ATU) qonağı olublar.**



ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova qonaqları salamlayaraq, onlara ilk öncə universitet haqqında məlumat verdi. O bildirdi ki, son illərdə ATU-nun dörd yeni klinikası inşa olunub və istifadəyə verilib.

Daha sonra ATU-nun rezidentura şöbəsinin müdiri Rizvan Məmmədov qonaqlara bu ali təhsil ocağının rezidentura fəaliyyəti barədə məlumat verdi. O, rezidentura şöbəsinin artıq 4 ildir ki, mövcud olduğunu bildirdi.

Görüşün davamında East London Universitetinin Fizioterapiya proqramının rəhbəri Liz Nichalls layihə barədə danışaraq, proqramın üstünlüklərindən söz açdı.

Görüşdə hər iki universitet arasında fizioterapiya ixtisası üzrə rezidentura proqramı müzakirə olundu. Gələcəkdə fizioterapiya şöbəsi üzrə rezidentura proqramının yenilənməsinə, qarşılıqlı istiqamətdə işlərin görülməsinə dair söhbətlər aparıldı.

Görüşdə ATU-nun xarici tələbələrlə is üzrə dekanı İsmayıl Əfəndiyev, ATU-nun xarici əlaqələr üzrə şöbə müdiri Nadir Zeynalov da iştirak edirdilər.

# Macarıstan Tibb Universitetinin rektoru ATU-da qonaq oldu

**Bu günlərdə Macarıstan Respublikasının Milli Assambleyasının sədri Laszlo Köverin başçılıq etdiyi nümayəndə heyəti Bakıda səfərdə olub. Səfər zamanı nümayəndə heyətinin üzvləri Azərbaycan Tibb Universitetində qonaq olublar. Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, akademik Əhliman Əmiraslanovla Macarıstan Tibb Universitetinin rektoru Dr. Szyl Bgoston arasında görüş keçirilib.**



ATU-nun rektoru, akademik Əhliman Əmiraslanov qonaqları salamlayaraq, Azərbaycanla Macarıstanın qardaş ölkə olduğunu və təhsil müəssisələrimiz arasında yaxın əlaqənin yaradılmasının vacibliyini vurğuladı. Bu sahədə hətta gecikdiklərini də qeyd edən rektor bildirdi ki, qarşılıqlı layihələr həyata keçirilməlidir. Əhliman Əmiraslanov ATU-nun fəaliyyəti barədə də qonaqlara məlumat verdi. Onun sözlərinə görə, bu ali təhsil ocağı 1919–cu ildə Bakı Dövlət Universitetinin tərkibində fakültə kimi yaradılıb. 1930-cu ildən isə müstəqil ali məktəb kimi fəaliyyət göstərməyə başlayıb: “Universitetimiz bu il müstəqil universitet kimi 85 yaşını, fakültə kimi isə 96-cı yaşını qeyd edəcək”. ATU-nun professor-müəllim heyəti haqqında da məlumat verən millət vəkili Ə.Əmiraslanov bildirdi ki, 6 fakültəsi olan bu ali təhsil ocağında 160-dan çox professor, 320 dosent, 800-ə yaxın elmlər namizədi və ümumilikdə 1300 nəfər akademik personal çalışır: “Hazırda universitetdə 7000-dən çox tələbə və rezident, həmçinin 1000-dən çox xarici ölkə vətəndaşları olan tələbələr təhsil alırlar”.

Macarıstan Tibb Universitetinin rektoru Dr. Szyl Bgoston öz növbəsində qonaqpərvərlik üçün təşəkkür edərək, ATU-nun klinikalarının çox yüksək səviyyədə olduğunu, müasir standartlara cavab verdiyini söylədi. İxtisasca anatomik olan əcnəbi rektor həmçinin ATU-nun Anatomiya muzeyini çox bəyəndiyini də xüsusi qeyd etdi. O, həmçinin iki ali təhsil ocağı arasında sıx əlaqələrin yaradılmasında maraqlı olduğunu və gələcəkdə bununla bağlı müqavilə imzalanacağını qeyd etdi.

Görüşdə Macarıstanın Bakıdakı səfirinin II katibi Zoltan Timar, Macarıstan Tibb Universitetinin beynəlxaq əlaqələr şöbəsinin müdiri Marcel Pop, Azərbaycan Təhsil Nazirliyinin aparatının rəhbər müavini Yaqub Piriyev, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Muxtar Məmmədov, ATU-nun tədris işləri üzrə prorektoru Sabir Əliyev, ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova, beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalov və tədris hissə müdiri Nəsimi Qasımov da iştirak edirdilər.

# Tədris Cərrahiyyə Klinikasında könüllü donorlar qan veriblər

**14 iyun - Ümumdünya Qan Donoru Günü ilə əlaqədar Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında qanvermə aksiyası keçirilib. Qızıl Aypara Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan aksiyanın məqsədi donor qanına ehtiyacı olan insanlara yardım etməkdir.**





Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Tibb Universiteti komitəsinin sədri Şahrud Əhmədovun sözlərinə görə, aksiyada iştirak edən könüllü donorlar müxtəlif qan xəstəliklərdən əziyyət çəkən insanlara öz qanlarını veriblər: “Bu kimi tədbirləri silsilə şəklində keçiririk. Bu, bizim artıq ikinci aksiyamızdı və davamı olacaq”.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının Qan Bankının müdiri Sevda Quliyeva bildirdi ki, aksiyada iştirak üçün müraciət edən könüllü donorlar ilk növbədə müayinə olunurlar: “Onların hər birinin analizləri toplanılır. Əgər səhhətlərində hər hansı bir problem yoxdursa, onlardan qan götürülür”.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin “İcmaya əsaslanan sağlamlıq” proqramının rəhbəri Mətanət Qaraxanova belə bir tədbirin keçirilməsinə razılıq verdiyi üçün ATU rəhbərliyinə təşəkkür etdi. Onun sözlərinə görə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti ölkəmizdə dövlətə yardımçı rolu oynayan qeyri-hökumət təşkilatıdır: “Biz bir çox təhsil ocaqlarında, təşkilatlarda, ümumiyyətlə, Azərbaycanı əhatə edən rayon bölmələrimizdə və regional mərkəzlərimizdə belə aksiyalar keçiririk. “İcmaya əsaslanan sağlamlıq” proqramına qan donorlarının cəlb olunması da bu aksiyaya daxildir”.

M.Qaraxanovanın sözlərinə görə, hər il 14



iyun - Ümudünya Qan Donoru Günündə təşkil etdikləri qanvermə aksiyaları müxtəlif mövzuları əhatə edir. Bu gün keçirilən aksiyanın mövzusu “Mənim həyatımı xilas etdiyinə görə sənə minnətdaram”dır.

**ATU-nun mətbuat xidməti**

**Fotolar Cənnətalı Çingizindir**

# Səhiyyə ocaqlarında əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər bir şərait yaradılıb

**Artıq ölkəmizdə ən çətin cərrahiyyə əməliyyatları, o cümlədən böyrək və qaraciyər transplantasiyası, açıq ürək əməliyyatları böyük vüsət alıb. Bu ildən etibarən Respublika Yanıq Mərkəzində plastik rekonstruktiv cərrahiyyə əməliyyatlarının icra edilməsi isə daha bir yenilikdir. Özü də cərrahiyyədə tək kəmiyyət artmayıb, həm də keyfiyyət yüksəlib. Əməliyyatların sayı artsa da, əməliyyatdan sonra ölüm halları dəfələrlə azalıb.**




AZƏRTAC xəbər verir ki, bu sözləri tibb işçilərinin peşə bayramı münasibətilə keçirilən tədbirdə səhiyyə naziri Oqtay Şirəliyev deyib.

Nazir bildirib ki, indi səhiyyəmizin hər ili, hər ayı irəliləyişlə, yeni-yeni nailiyyətlərlə yadda qalır. Ötən bir il ölkə səhiyyəsi üçün uğurlu olub. Dünyadakı maliyyə böhranına baxmayaraq, Azərbaycan dövləti səhiyyə sahəsində öz vətəndaşları qarşısında götürdüyü bütün öhdəlikləri yerinə yetirir.

"Ölkəmizin səhiyyə ocaqlarında Azərbaycan vətəndaşlarına yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər bir şərait yaradılıb. Bu, həm səhiyyə müəssisələrinin tikintisi və əsaslı təmiri, həm müasir cihazlarla təchizatı, həm də avadanlıqla, dərman vasitələri ilə təminatına aiddir", - deyə O.Şirəliyev qeyd edib.

**Ulu öndər Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli sərəncamı ilə hər il 17 iyun ölkəmizdə tibb işçillərinin peşə bayramı kimi qeyd olunur.**

# Tibb işçilərinin peşə bayramı qeyd olundu



Bu gün Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin edilir.

Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzində saxlanılır. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsait ildən-ilə artırılıb ki, bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açıb.

Müstəqil respublikamız ötən illərdə səhiyyə sahəsində bir çox uğurlara imza atıb. Həyata keçirilən dövlət proqramları müvəffəqiyyətlə davam etdirilir. İrsi qan xəstəlikləri ilə bağlı Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin əhəmiyyəti xüsusi vurğulanmalıdır. UNESCO və İSESCO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bilavasitə təşəbbüsü ilə reallaşdırılan bu proqramlar çərçivəsində talassemiyalı və hemofiliyalı xəstələrin problemləri həllini tapıb.

Ötən dövr ərzində səhiyyə müəssisələrinin inşası, əsaslı təmiri və yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Bakıda və ölkənin digər regionlarında 500-dən çox tibb müəssisəsinin tikintisi və əsaslı təmiri aparılıb. Son illər ərzində Azərbaycan Tibb Universitetinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib. Ölkədə tibbi kadrların hazırlanması səviyyəsinin yüksəldilməsi məqsədilə universitetin tədris klinikaları yaradılıb. Respublikamızın bir çox bölgələrində beynəlxalq standartlara cavab verən yeni müalicə-diaqnostika mərkəzləri inşa edilib. Bu diaqnostika mərkəzlərində ən unikal cərrahiyyə əməliyyatların aparılması üçün hər cür şərait yaradılıb.

Azərbaycan səhiyyəsinin Avropa məkanına inteqrasiya olunmasına ciddi səylər göstərilib. Təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin maddi-texniki bazasının təkmilləşdirilməsi, yeni müasir növ sanitar avtomobillərlə təminatı istiqamətində də əhəmiyyətli işlər görülüb. Almaniyadan gətirilən "Mercedes" markalı təcili tibbi yardım avtomobilləri buna bariz nümunədir.

Səhiyyə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi də dövlət başçısının diqqət mərkəzindədir. Son illər ərzində səhiyyə işçilərinin maaşı dəfələrlə artırılıb. Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan genişmiqyaslı islahatlar göstərir ki, milli səhiyyə sistemimiz sürətlə müasirləşir, vətəndaşlarımız dövlətin yaratdığı tibbi xidmətdən yüksək səviyyədə yararlanır. Bir sözlə, səhiyyə sistemində aparılan islahatlar vətəndaşların sağlamlığının etibarlı təminatına xidmət edir.

**QABİL**

# Tədris Cərrahiyyə Klinikasının nümayəndələri elmi konfransda

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərahiyyə Klinikası ilə İstanbul Bilim Universitetinin və "Florence Nightingale" xəstəxanalar qrupunun elmi əməkdaşlığı səhiyyəmizin inkişafina növbəti xidmətlərini göstərməkdədir.**

Belə ki, bu günlərdə Azərbaycan Tibb Universiteti, İstanbul Bilim Universiteti və "Florence Nightingale" xəstəxanalar qrupunun təşkilatçılığı ilə İstanbulda II Akademik İş birliyi konfransı keçirilib.

Konfransın başlanğıcında İstanbul Bilim Universitetinin rektoru Prof. Dr. Çavlan Çiftçi və ATU-nun Tədris Cərrahiyyə Klinikasının baş həkimi, t.ü.f.d. Asiman Həsənov açılış nitqi edərək, Türkiyə-Azərbaycan münasibətlərindən, bunun səhiyyə sahəsində rolundan, Türkiyənin tibb sahəsində əldə etdiyi yeni nailiyyətlərin Azərbaycan tibbinə olan dəstəkləyici təsiri və əldə olunan uğurlardan söhbət açdılar.

Konfransın davamında birgə əməkdaşlıqları münasibəti ilə ATU-nun Tədris Cərrahiyyə Klinikasının baş həkimi Asiman Həsənov xalqımızın milli və mənəvi dəyərlərini təsvir edən xatirə hədiyyəsini Prof. Dr. Çavlan Çiftçiyə təqdim etdi. Həmçinin Prof. Dr. Çavlan Çiftçi də universitet xəstəxanası olaraq ATU ilə birgə əməkdaşlıqlarına görə böyük məmnunluq hissi duyduğunu vurğulayaraq, ona plaket hədiyyə etdi.

Tədbirdə həmçinin ATU-nun Tədris Cərrahiyyə Klinikasının nümayəndə heyətinin üzvlərindən – AMEA-nın müxbir üzvi, prof. Dr.Nuru Bayramov, Uzman kardio-cərrah Mirəli Məcidov, Dr. Cavid Paşayev, Şüa-diaqnostika şöbəsinin müdiri Dr. Rasim Bayramov, Ass.Dr. Ruslan Məmmədov, Dos. Dr. Sədrəddin Atakişizadə, t.ü.f.d. Dr.Qalib İmanov, Ass. Dr.İmran Səfiyev, Dr. Eldəniz Əliyev, eləcə də Türkiyənin tanınmış cərrahları, beynəlxalq mütəxəssislər iştirak edirdilər.

Konfransda müasir cərrahiyyənin müxtəlif istiqamətlərindən, Neyrocərrahiyyədə mikrocərrahiyyə, Serebral-vaskulyar patologiyalar, Genetik xəstəliklərə aktual yanaşma üsulları, hüceyrə və toxuma transplantasiyası, kök hüceyrələrinin köçürülməsi, orqan transplantasiyası, ürək transplantasiyası, bu sahələrdə qazanılan uğurlardan, praktikada üzləşdikləri hallar haqqında və bir sıra digər mövzular üzrə çıxışlar olub. Sonra konfrans iştirakçıları həmin mövzular ətrafında müzakirələr apardı. Həmçinin birinci günün sonunda konfrans iştirakçıları "Florance Nightingale" xəstəxanalar qrupunu da ziyarət ediblər.





Sonda baş həkim Asiman Həsənov çıxış edərək, Türkiyə-Azərbaycan münasibətlərindən söz açıb. O bildirib ki, əl-ələ verib birgə gördükləri uğurlu iş birliyi bütün türk dünyasında, həmçinin tibb sahəsində də öz müsbət nəticəsini göstərir və göstərəcək: "Bu birlik getdikcə daha da genişləndiriləcək, o cümlədən müştərək elmi layihələrin hazırlanması və həyata keçirilməsi, Beynəlxalq elmi-praktik konfransların, simpoziumlar və seminarların təşkili, tələbə, rezident və magistr mübadiləsi, müəllimlərin təcrübə mübadiləsinin həyata keçirilməsi kimi işlər daha da aktivləşdiriləcək".

**Günel ASLANOVA**

# «MƏŞƏLİ DAŞIMAQ ÜÇÜN SEÇİLMƏK BÖYÜK ŞƏRƏFDİR»

**İyunun 12-də ölkəmizdə start götürən I Avropa Oyunları qeyri-adiliyi ilə təkcə tədbirə qatılan tamaşaçıları deyil, bütün Avropanı, dünyanı heyrətləndirdi. Azərbaycan xalqına unudulmaz anlar bəxş edən bu idman bayramı qəlbimizi qürur hissi ilə doldurdu. Yarışa qatılan çempionlarımızın qələbələrini böyük coşqu ilə qarşılayan həmyerlilərimiz sonsuz sevinc hissi yaşadılar.**

I Avropa Oyunları başlamazdan əvvəl Olimpiya məşəli ölkəmizin bütün diyarlarını dolaşdı. Bakıda "Atəşgah" məbədindən od alan məşəl 47 günlük səfər müddətində əldən-ələ daşınaraq 60 rayonu, 5500 km məsafəni qət edərək sonuncu dayanacağa - paytaxta döndü. Prezident İlham Əliyev məşəli qəbul etdikdən sonra Avropa Oyunlarının "elçisi" sənət adamlarının, idmançıların və digər şəxslərin əllərində - 100 məşəlçi tərəfindən şəhər boyunca 16 kilometr məsafəni gəzərək sakinlərdə yüksək bayram ovqatı yaratdı. Məşəlçilər arasında Azərbaycan Tibb Universitetinin müəllimi Cəbrayıl Cəbrayılov da vardı.

Xatırladaq ki, C.Cəbrayılov 1950-ci ildə Masallı rayonunun Ərkivan kəndində anadan olub. 1967-ci ildə Ərkivan kənd orta məktəbini bitirib və həmin il N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olub.

1974-cü ildə institutu müvəffəqiyyətlə bitirən C.Cəbrayılov tədrislə kifayətlənməyərək, həm də idman sahəsində böyük nailiyyətlər əldə edib. O, hələ orta məktəb illərində idmanın ağır atletika növü ilə məşğul olmağa başlamışdır.

Tibb İnstitutunda oxuduğu illər idmanın bu növü ilə məşğul olmaq üçün onun qarşısında yeni imkanlar açdı. Ali məktəblərin tələbələri arasında keçirilən Bakı birinciliklərində, respublika səviyyəli çempionatlarda öz gücünü sınadı və nailiyyətlər qazandı.

C.Cəbrayılov hələ tələbə olarkən, Tibb İnstitutunun idman tarixində ilk dəfə olaraq ağır atletika idman növü üzrə "İdman ustası" normasını yerinə yetirmişdir. O, dəfələrlə respublika çempionu və rekordçusu olmaqla bərabər, ümumittifaq və beynəlxalq idman yarışlarında da iştirak etmişdir.

Keçmiş SSRİ çempionatlarında və SSRİ kuboku yarışlarında çıxış edən C.Cəbrayılov on ən güclü idmançılar sırasına daxil olmuşdur. O, SSRİ xalqlarının VII spartakiadasında müvəffəqiyyətlə çıxış edərək komandasına "Qızıl" zaçot xalı qazandırmış, dəfələrlə ümumittifaq "Burevestnik" idman cəmiyyətinin çempionu və rekordçusu olmuşdur.

C.Cəbrayılov 1976-cı ildə Əlcəzairdə keçirilən Beynəlxalq turnirin qalibi olmuş, həmin il Riqa şəhərində gənclər arasında keçirilən ağır atletika üzrə SSRİ çempionatında I mükafata layiq görülmüşdür.

Azərbaycanın idman tarixində ilk dəfə olaraq o, 1979-cu ildə Frunze şəhərində keçirilən SSRİ kuboku və ayrı-ayrı hərəkətlər üzrə (birdən və təkanla qaldırma) SSRİ çempionatında ağır atletika üzrə "Beynəlxalq dərəcəli idman ustası" normasını ödəmişdir.

1981-ci ildə Maqnitoqorsk şəhərində keçirilən tələbələrin II Ümumittifaq Universiadasında birinci yeri tutan C.Cəbrayılov təkcə idmançı kimi yox, həmçinin idmançılarımızın hazırlanmasında məşqçi kimi də böyük əmək sərf etmişdir. O, 1976-cı ildən bu günə qədər məşqçilik fəaliyyətini davam etdirir. 1997-2000-ci illər ərzində Azərbaycan Milli Yığma Komandasında məşqçi işləmişdir. Bu müddətdə Cəbrayıl müəllim bir sıra mötəbər beynəlxalq yarışlarda, turnirlərdə uğurla çıxış edən



çoxsaylı idmançılar ( Akif Alıyev, Namiq Cəmilov, Elmar Alıyev, Asif Məlikov, Nizami Cəbrayılov və s.) yetişdirmişdir.

1999-cu ildə Beynəlxalq Ağır Atletika Federasiyası tərəfindən ona "Beynəlxalq dərəcəli hakim", 2000-ci ildə idman sahəsindəki xidmətlərinə görə Respublikanın "Fəxri bədən tərbiyəsi və idman işçisi", 2010-cu ildə isə Gənclər və İdman Nazirliyi tərəfindən Respublikanın "Əməkdar məşqçisi" fəxri adı verilmişdir.

C.Cəbrayılov 1992-ci ildən Azərbaycan Ağır Atletika Federasiyasının rəyasət heyətinin üzvüdür.

14-15 dekabr 2012-ci il tarixində Bakı şəhərində keçirilən I WF – Grand – Prix – ağır atletika üzrə Birinci Bakı Beynəlxalq kuboku yarışlarında Beynəlxalq Ağır Atletika Federasiyasının rəhbərliyi C.Cəbrayılovun Beynəlxalq dərəcəli hakim lisenziyasını Yeni Olimpiya dövrü – 2013-2016-cı illər üçün yeniləşdirmişdir.

I Avropa Oyunlarının ölkəmizdə keçirilməsini həm bir vətəndaş, həm də idmançı kimi böyük sevinc hissi ilə qarşıladığını deyən Cəbrayıl müəllim təəssüratlarını bizimlə bölüşdü:

- Mən hələ idmanın ağır atletika növü ilə məşğul olan vaxtı belə oyunlarda iştirak etməyi və onun təşkilinə kömək göstərməyi arzulamışam. Təəssüf ki, bu, mənə nəsib olmayıb.

Nəhayət, bir neçə illərdən sonra bu arzum gerçəkləşdi. Gənclər və İdman Nazirliyindən mənə bildirdilər ki, Bakı Avropa Oyunları Əməliyyat Komitəsi sizi Məşəl estafetində iştirak etməyə dəvət edir.

Məşəl estafeti bu cür mötəbər oyunların əsas məqamlarından biridir və məşəli daşımaq üçün seçilmək böyük şərəfdir. Oyunlar başlamazdan əvvəl paytaxtda məşəli daşıyanlardan biri də mən oldum. Sevincimin həddi-hüdudu yox idi, çox qürurlandım.

Mən bu şərəfə layiq görüldüyümə görə birinci növbədə ölkəmizin və Milli Olimpiya Komitəsinin Prezidenti Cənab İlham Əliyevə, Avropa Oyunları Təşkilat Komitəsinin sədri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığımı bildirirəm.

İlk Avropa Oyunlarının Bakıda keçirilməsi, onun açılış mərasimi, yarışın ayrı-ayrı idman növləri üzrə yüksək səviyyədə təşkili ölkəmizin dünyada daha yaxından tanınmasına səbəb oldu. Müstəqilliyimizin ilk illərində ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə dediklərini xatırladım: "Dünya ölkələri arasında öz imzası vardır Azərbaycanın"!

İftixar hissi ilə deyə bilərik ki, Azərbaycan dünyanın idman salnaməsinə də öz imzasını atdı.

**A.KAMRANOĞLU**

# İmanova Səidə Sadıx qızı

**ATU-nun nevrologiya və tibbi genetika kafedrasının kollektivinə ağır itki üz vermişdir Kafedranın dosenti, tibb elmləri namizədi İmanova Səidə Sadıx qızı 2015-ci ilin mayın 24-də dünyasını dəyişmişdir.**



İmanova Səidə 1927-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1945-ci ildə orta məktəbi qızıl medalla, 1950-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki ATU) fərqlənmə diplomu ilə bitirmişdir. 1958-ci ilədək Semaşko adına Şəhər klinik xəstəxanasının nevroloji şöbəsində ordinator işləmişdir. 1958-1960-cı illərdə SSRİ TEA Nevrologiya İnstitutunun ordinatoru olmuşdur. 1961-ci ildə isə Azərbaycan Tibb İnstitutunun nevrologiya kafedrasının aspiranturasına daxil olaraq SSRİ TEA Nevrologiya İnstitutuna ezam edilmişdir. 1964-cü ildə aspiranturanı bitirmiş və Bakı Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun elmi işçisi, sonra isə elmi katibi seçilmişdir. 1968-ci ildə Moskvada SSRİ TEA Nevrologiya İnstitutunda dissertasiya müdafiə etmiş və tibb elmləri namizədi adına layiq görülmüşdür.

1969-cu ildə müsabiqə yolu ilə ADTİ-nun sinir xəstəlikləri kafedrasının dosenti seçilmişdir.

İmanova Səidə Sadıx qızı kafedrada işlədiyi müddət ərzində elmi pedaqoji işdə xüsusi bacarığı ilə fərqlənmişdir. Onun oxuduğu mühazirələr və apardığı praktik dərslər kafedra işçiləri və tələbələr tərəfindən yüksək qiymətləndirilmişdir. 92 çap edilmiş elmi işin müəllifi olub.

O, namizədlik dissertasiyasının müdafiəsi üzrə ixtisaslaşdırılmış Elmi Şuranın və Problem komissiyasının üzvü, Səhiyyə Nazirliyinin Attestasiya Komissiyasının, Azərbaycan Nevroloqlar Cəmiyyətinin idarə heyətinin üzvü, uzun müddət kafedranın tədris hissə müdiri, Səhiyyə Nazirliyinin Tibbi reabilitasiya idarəsinin, müxtəlif tibb müəssisələrinin konsultant-nevropatoloqu olmuşdur. 80 illik yubileyi münasibəti ilə "Fəxri fərman"la təltif edilmişdir.

Gözəl insan, bacarıqlı və səriştəli pedaqoq Səidə xanım İmanovanın əziz xatirəsi kollektiv və tələbələrin, onu tanıyanların yaddaşında daim yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!!**

*Nevrologiya və tibbi genetika kafedrasının əməkdaşları*

# Tədris Cərrahiyyə Klinikasında «Ürək-damar xəstəliklərinə ümumi baxış» mövzusunda məruzə dinlənildi

**◆ İyun ayının 29-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Uzman kardio-cərrah Dr. Mirəli Məcidov «Ürək-damar xəstəliklərinə ümumi baxış» mövzusunda məruzə ilə çıxış edib.**



Toplantıda öncə Baş həkim t.ü.f.d. Dos. Dr. Asiman Həsənov çıxış etdi. Daha sonra Ürək-damar Cərrahiyyə şöbəsinin müdiri, Uzman kardio-cərrah Dr. Mirəli Məcidov Ürək-damar cərrahiyyəsinin bütün patalogiyalarından, bu patalogiyalar zamanı əməliyyatdan öncə və sonra tətbiq olunan taktikalar barəsində ətraflı məlumat verdi. O bildirdi ki, məhz Tədris Cərrahiyyə Klinikasında bu əməliyyatlar çox uğurla aparılır.

Belə ki, Dr. Mirəli Məcidov Koronar arteriya xəstəlikləri, əməliyyata göstərişləri, tətbiq olunan qreftlər, Klassik Koronar Bypass əməliyyatı, Bypass-körpü əməliyyatı, Off-pump AKŞ, hansı xəstəliklərdə tətbiq olunduğunu, ürəyin arxa üzünün revaskülarizasiyası, anastamoz tipləri, Miokard infarktının ağırlaşmaları, Aort qapaq xəstəliyi, aort stenozu, aort çatışmamazlığı, bu zaman əməliyyata göstərişlər, qapaq seçimi, mirtal qapaq çatışmazlıqları, qapaq təmiri, "Ring" annuplasti, mitral mexanik protez qapaqlar, dağılma riski, klinika və diaqnostikası, əməliyyata göstərişlər, Aort diseksiyaları, Debakey və Stanford siniflənməsi, İntramural hematoma, Aort kökü təmiri,Bental əməliyyatı, Cabrol əməliyyatı, Malperfuziya, Abdominal aort anevrizması, müalicə taktikaları, Periferik arter cərrahiyyəsi, damara müdaxilə yolları, AV greft yerləşimləri,qalıcı kateterin qoyulması, kateterizasiyaya bağlı ağırlaşmalar və s. mövzular üzərində ətraflı çıxış etdi.

Toplantıda iştirak edən şöbə müdirləri, rezidentlər və tələbələrin mövzu üzərində ətraflı müzakirəsi aparıldı.

Sonda Baş Həkim Dos. Dr. Asiman Həsənov tutduğu bu məsuliyyətli və qürurverici yolda uzman-kardio-cərrah Dr.Mirəli Məcidova təşəkkürünü bildirərək, uğurlar dilədi və cərrahiyyənin müxtəlif sahələri üzrə bu tip mühazirələrin həftədə bir dəfə keçirilməsinin həkim, rezident və tələbələr üçün səmərəli olduğunu da qeyd etdi.

**ATU-nun mətbuat xidməti**

# Beynəlxalq uğurlarımız

Azərbaycan Tibb Universitetinin Ümumu cərrahlıq kafedrasının əməkdaşları t.ü.e.d. Novruz Hacıyev və t.ü.f.d. Elman Tağıyev may ayında Almaniyanın Hannover şəhərində keçirilən «İnternationaler Kongress Fachmesse» adlı Beynəlxalq konqresdə Respublikamızı, eləcə də Azərbaycan Tibb Universitetini uğurla təmsil ediblər. Belə ki, Universitetimizin hər iki əməkdaşının elmi məruzələri böyük maraqla qarşılanıb. N.Hacıyev gənc alim kimi ilk dəfə olaraq konqresin cərrahi panelinə sədrlik edib.



Konqresdəki uzun müddətli fəaliyyətinə görə N.Hacıyev Almaniyanın Təbiət Akademiyasına gizli səsvermə yolu ilə üzv seçilib. Hər iki alimimiz konqresdəki aktiv fəaliyyətlərinə, təqdim etdikləri elmi məruzələrin aktuallığı və müasir elmi əhəmiyyətinə görə konqresin təşkilatı rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib. Novruz Hacıyevə Paster medalı, Elman Tağıyevə isə Kox medalı təqdim edilib.

**"Təbib"**

# Azərbaycan Tibb Universitetini əla qiymətlərlə başa vuran məzunlarımız



### Quliyeva Münəvvər İsax qızı

1991-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. 1998-ci ildə Bakı şəhərindəki 126 saylı tam orta məktəbin 1-ci sinfinə gedib. 2002-ci ildə imtahan verərək Bakı Kompüter Kolleci nəzdindəki tam orta məktəbin 5-ci sinfinə daxil olub. Həmin illərdə Məktəb parlamentinin və "İrəli" Gənclər Təşkilatının fəal üzvlərindən olub. 2007-ci ildə BDU-nun nəzdindəki Gənc İstedadlar liseyində təhsilini davam etdirib. 2009-cu ildə həmin liseyi müvəffəqiyyətlə başa vuraraq Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub.

2011-ci ildə müsabiqə yolu ilə Ankara Dövlət Tibb Universitetinə qəbul olub.

İngilis, alman, rus dillərini bilir.

Gələcəkdə savadlı həkim kimi xalqımızın sağlamlığı keşiyində durmaq arzusundadır.

### Abbasova Ləman Malik qızı



1991-ci ildə Bakıda anadan olub. 1998-ci ildə 160 saylı Klassik Gimnaziyanın I sinfinə gedib. 2009-cu ildə 43 saylı Humanitar liseyi əla qiymətlərlə bitirərək 575 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinə daxil olub. 2012-ci ilin aprelində fakültə üzrə Tələbə Elmi Cəmiyyətinin konfransında «Şəkərli diabetin qaraciyər fermentlərinin aktivliyinə təsiri» mövzusundakı çıxışına görə birinci yeri tutub. Gələcəkdə təhsilini İngiltərədə davam etdirməyi düşünür.

### Bayramova Mədinə Mənsum qızı



1992-ci ildə Ağdam rayonunun İmamqulubəyli kəndində anadan olub. Səbail rayonunun Badamdar qəsəbəsindəki 239 saylı və Binəqədi rayonundakı 182 saylı məktəbdə orta təhsil alıb. Oxuduğu müddət ərzində fəallığı ilə seçilib. Bilik yarışmasında 54 məktəb içərisinə 2-ci yeri tutaraq oxuduğu məktəbi layiqincə təmsil edə bilib. Dəfələrlə olimpiadalarda, inşa musabiqələrində iştirak edərək yer tutub. Azərbaycan dili və ədəbiyyatı fənlərindən rayon və şəhər uzrə 1-ci, respublika üzrə 4-cü yerə layiq görülüb. Orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinə qəbul olub. Oxuduğu 6 il ərzində çoxlu seminar və konqreslərdə iştirak edərək bir cox sertifikatlara layiq görülüb. Bundan başqa Türkiyənin İzmir, Ankara, Mardin, Antep, İstanbul və s. kimi şəhərlərində tibbi konfranslarda iştirak edib. Yay praktikalarını İstanbulda Şisi Etfal EAHde, Semiha ŞAKİR Qadın Dogum Xəstəxanasında, Zeynəb Kamildə, Bakirkoy Dövlət Xəstəxanasında, Hasekidə keçirib. Bundan başqa Ankara Səhiyyə Nazirliyindən Global şirkətin əməkdaşlığı ilə qabiliyyət sertifikatı alıb. Xeyriyyə məqsədilə yaradılan qrupun üzvü olub, tez–tez uşaq evlərinə baş çəkərək ianələrin verilməsində iştirak edib.

Ankaranın Tip dil imtahanından müvəffəqiyyətlə keçərək TUS-da imtahan verməyə haqq qazanıb. Əsas hədəfi Türkiyədə savadlı mütəxəssis kimi yetişməkdir.

### Etibarsız sayılır

Tibbi-biologiya və genetika kafedrasının müəllimi Abbaszadə Zümrüd Əmirqulu qızının adına Azərbaycan Tibb Universiteti tərəfindən verilmiş buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Oxucularımızın yaradıcılığı



### APAR MƏNİ

Vətənə apar məni,
Sözümü verim sənə.
Həsrətdən qurtar məni,
Közümü verim sənə.

Çəkdiyim mənə bəsdir,
Harayım quru səsdir.
Düşmənin yolun kəsdir,
Dözümü verim sənə.

Göz yaşın sıx gözümə,
Eşqim ol, ax gözümə.
Gözünlə bax gözümə,
Gözümü verim sənə.

### ZAMANINDA GƏL

Bir yol imdadıma zamanında gəl,
Təmiz xəyalında, gümanında gəl.
Bəxtimin sisində, dumanında gəl,
Söz-söhbət içində itib batmışam.

Çəkdirmə həsrətin, həsrət acıdır,
Təsəlli verənim təkcə bacıdır.
Sevgi şah damarın qızıl tacıdır,
Bu gecə yuxumu sənlə qatmışam.

Loğmansan, dərdimin dərmanı səndə,
Tənhalıqdan düşdüm mən də kəməndə.
Gəl apar məni də özünlə kəndə,
Hər şeyi şəhərdə üzüb atmışam.

**Sara GÖYÇƏLİ**
*ATU-nun əməkdaşı*

### VƏTƏN



Bir gün duruxdum yenə,
Sual verdim özümə:
- Vətən hardan başlayır?
Cavab verdim beləcə:

Vətən -
Ana bətnindən,
İsti ana qoynundan,
Qucağından başlayır!
Ayaq açıb gəzdiyin
Çölündən, çəmənindən,
Məlhəm tək qoxladığın
Çiçəyindən başlayır!

Vətən -
Ulu babalartək ,
Başı qarlı dağlardan...
İgid ərənlər kimi
Hayqıran, tüğyan edən,
Əsən, coşan, çağlayan
Gur çaylardan başlayır!

Vətən -
Koroğlu tək hünərli
Babaların gücündən,
Qüdrətindən başlayır!
Tomris-Nigar ürəkli
Nənələrin qanından,
Qeyrətindən başlayır!

Vətən -
Xocalı, Şuşa kimi
Qarabağ harayından,
Zillətindən başlayır!
"Vətən"- deyib can verən
Şəhidlərin qanından,
Ruhundan başlayır!

Sual verdim özümə:
- Mənimçün Vətən nədir?
Cavab verdim beləcə:

Vətən-mənim yurd yerim,
Vətən-mənim and yerim!
Vətən-mənim səcdə yerim,
Vətən qibləgahımdır!

Vətən bütün varlığım,
Sinəmdə vuran qəlbim.
Damarda axan qanım,
Vətən mənim canımdır.

Vətən üçün canımdan
Keçməyə də hazıram.
Vətənim Azərbaycan...
Vətənə canım qurban.

**Mənsurə MÜRSƏLQIZI**
*ATU-nun əməkdaşı*

## Kanada alimləri: Hər dörd uşaqdan biri internet-hədələmənin qurbanıdır



Depressiyadan və psixi pozğunluqlardan əziyyət çəkən uşaqların sayı artır. Alimlər bildirirlər ki, kiberhədələmə uşaqlarda sinir sistemi ilə bağlı bir sıra xəstəliklərin yaranmasına səbəb olur. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, söhbət "Facebook" kimi sosial şəbəkələrdən gedir.

Psixoloqlar Alberta Universitetinin və Qabaqcıl Təcrübə Mərkəzinin (Ottava, Kanada) nümayəndələrinin köməyi ilə həyata keçirilən 36 tədqiqat nəticəsində müəyyən ediblər ki, elektron hücumların təməlində yaşıdlarla münasibətlərdə problemlər dayanır. Sən demə, rəyi soruşulanların 5 faizdən 74 faizə qədəri virtual təhqirlərə məruz qalıb. Orta göstərici 23 faiz təşkil edib. Başqa sözlə desək, hər dörd uşaqdan biri internet-hədələmənin qurbanıdır.

Ekspertlər bildiriblər ki, hədələmə ilə depressiyanın inkişaf ehtimalının artması arasında sabit qarşılıqlı əlaqə müşahidə olunur. Məsələn, sınaqların aparıcı müəllifi Mişel Hamm bildirib ki, çox vaxt belə manipulyasiyaların qurbanı məhz qızlar olur.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 250